

**Azərbaycan Ordusu cəbhədə Ermənistanın işğalçı qüvvələrini, sözün həqiqi mənasında, əzir. Yaranmış vəziyyət Ermənistanda böyük isterika yaradıb, hətta baş nazir Nikol Paşinyanın ciddi psixoloji sarsıntı keçirdiyi barədə də məlumatlar var. Maraqlıdır ki, Azərbaycan Ordusunun zərbələri altında təkcə Ermənistan əzilmir, onunla bərabər bu terrorçu dövlətin terror dəstəkçisi olan havadarları da sarsılırlar. Amma bu havadarlar Ermənistana "özgə torpağından çıx!" demək əvəzinə, ordan-burdan Azərbaycana təzyiq etməyə çalışırlar. Bu barədə Prezident İlham Əliyev də oktyabrın 26-da Azərbaycan xalqına müraciətində geniş söhbət açıb.**

# Təcavüzkar və himayədarları yeni reallıqla hesablaşmalıdırlar



***Dövlət başçısının fikirlərinə münasibət bildirən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin prorektoru, dosent Qasım Məmmədov dedi:***

– Təxminən 30 il ərzində Ermənistana "dur!" deməyənlər, münaqişənin sülh yolu ilə nizamlanmasına cavabdeh olduqları halda, məsələni müharibə həddinə gətirib çıxaranlar indi atəşkəsdən danışırlar. Prezident İlham Əliyev xalqa müraciətində bu məsələni çox yaxşı şərh etdi. Bildirdi ki, Minsk qrupunun fəaliyyəti bizə heç bir fayda verməyib, əksinə, Ermənistan üçün faydalı olub. Ona görə də Ali Baş Komandan çox böyük cəsarətlə sual edib: Nədir Minsk qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bilibmi? Yox! Təzyiq etmək istəyibmi? Yox! Niyə? Çünki indiyə qədərki dondurulmuş vəziyyət Ermənistanı tamamilə qane edib.

Azərbaycanın işğal olunmuş rayonlarında, eləcə də Şuşada Ermənistanın qanunsuz məskunlaşma aparmasına, ərəb ölkələrindən erməniləri köçürməsinə etiraz bildirən olmayıb. Halbuki bu əməllər, Prezidentin dediyi kimi, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir. Ona görə də cənab İlham Əliyev bunun nə demək olduğunu izah edib: "Bu, nə deməkdir? O deməkdir ki, davam elə, gətir, nə qədər istəyirsən gətir, bu torpaqları erməniləşdir, Azərbaycanın mədəni irsini sil. Bu idi mesaj. Yoxsa bu üç ölkə məgər imkanlara sahib deyil ki, təcavüzkara öz yerini göstərsin? İstəmirdilər. Bu reallıq onları qane edirdi". Beləcə, Azərbaycanı mövcud reallıqla barışmağa çağırıblar.

Amma Azərbaycan Ordusu torpaqlarımızı azad etməyə başlayandan sonra əl-ayağa düşüblər, Azərbaycana hər tərəfdən təzyiq göstərməyə başlayıblar. Gecdir. Prezidentin dediyi kimi, artıq Azərbaycan özü yeni reallıq yaradıb: indi hər kəs bu yeni reallıqla hesablaşmalıdır. Ali Baş Komandan bildirib: "Bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın! Ancaq nə görürük? Orada görüş, burada görüş, atəşkəs belə oldu, atəşkəsi kim pozdu? Deməli, bunların bütün fəaliyyəti indi Ermənistanı xilas etməkdir. Təcavüzkarı, Xocalı soyqırımını törədəni, Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə bombalayanı".

Bəli, artıq bundan o yana yol yoxdur. Artıq bıçaq sümüyə dirənib və Azərbaycan məsələni kökündən həll edir. Ona görə də təcavüzkar Ermənistan və onun himayədarları Azərbaycanın yaratdığı yeni reallığı qəbul edərək, bununla hesablaşmalıdır. İndi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başqa həll yolu yoxdur!..

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 29 oktyabr.- S.12.